# Tarixin böyük sınağından uğurla çıxan Dövlət-Ordu-Xalq birliyi



**2020-ci il 27 sentyabr... Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı qoşunların bütün cəbhəboyu sürətli əks-hücum əməliyyatına başlaması barədə əmr verdi.**

30 il ərazi bütövlüyümüzə xor baxan, torpaqlarımızı işğal edən mənfur düşmənə qarşı döyüş başlandı. Qəhrəman Azərbaycan əsgəri uğrunda canından keçməyə hazır olduğu Vətən torpaqlarının müdafiəsinə qalxdı. Düşmənin ərazi iddialarına son qoymaq vaxtı çatdı və İkinci Qarabağ müharibəsi dünya hərb tarixinə XXI əsrin müharibəsi kimi daxil oldu.

**(davamı 3-cü səhifədə)**






# Tarixin böyük sınağından uğurla çıxan
# Dövlət-Ordu-Xalq birliyi

**(əvvəli 1-ci səhifədə)**

Rəşadətli ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğalçı Ermənistana qarşı əks-hücum tədbirlərini qalibiyyətlə başa vurdu. Azərbaycan son iki əsrlik tarixində ilk dəfə döyüşlərdən ərazi itkisi ilə deyil, ərazi bütövlüyünün bərpası ilə çıxdı. Düşmən ordusunun yüzlərlə texnikası, minlərlə canlı qüvvəsi, illərlə qurduğu "yarılmaz istehkam"ları, "keçilməz sədd"ləri qəhrəman oğullarımız tərəfindən darmadağın edildi. İşğal altında olan torpaqlarımız - Cəbrayıl, Füzuli, Zəngilan, Ağdam, Qubadlı, Kəlbəcər, Laçın rayonları, Şuşa şəhəri, Hadrut qəsəbəsi, digər qəsəbələr, yüzlərlə kənd, strateji yüksəkliklər işğaldan azad olundu. Ermənistanla hərb meydanında, onun təxribatçı, işğalçı havadarları ilə diplomatiya müstəvisində apardığı müharibədə dövlətimizin gücü, qüdrəti, xalqımızın böyük mübarizə əzmi bütün dünyaya bəyan oldu. Dövlət-Ordu-Xalq birliyi tarixin böyük sınağından, çətin imtahandan üzüağ çıxdı. 30 il yüksək kürsülərdən "Qarabağ məsələsinin hərbi yolla həlli yoxdur deyənlər" layiqli cavab aldılar. Sübut etdik ki, bu məsələnin həlli hərbi yolla mümkündür. Qarabağ zəfəri müstəqil Azərbaycanın əldə etdiyi ən böyük qələbə kimi şanlı tariximizə yazıldı. Möhtəşəm zəfərimiz Ali Baş Komandanın qətiyyətinin, xalqın Vətən, yurd sevgisinin, dövlətçiliyə sədaqətinin, rəşadətli ordumuzun yenilməzliyinin simvoluna çevrildi.

Şuşa döyüşləri hərb tariximizin mübarizlik salnaməsinə, Azərbaycan Ordusunun qəhrəmanlıq rəmzinə döndü. 44 günlük Vətən müharibəsi zamanı oktyabrın 9-da həyata keçirilən Hadrut əməliyyatından sonra ordumuzun hərbi-strateji üstünlüyü daha da artdı. Bu əməliyyatı uğurla, şərəflə yerinə yetirən Azərbaycan ordusunun bölmələri qarşıya qoyulan çox çətin bir vəzifənin öhdəsindən layiqincə gəldilər. Peşəkar, güclü, vətənpərvər hərbçilərimiz 30 il ərzində işğal etdiyi Azərbaycan ərazilərində güclü istehkamlar quran mənfur düşmənin bir neçə xəttdən ibarət "yarılmaz müdafiə səd"lərini darmadağın edərək ən çətin şəraitdə belə düşmənin silahlı birləşmələrini məhv etdi. Beynəlxalq hüquq normalarını pozmadan döyüş meydanında düşmənə qan udduran qəhrəman əsgər və zabitlərimiz Hadrut qəsəbəsini əldə saxlamaq üçün düşmənin göstərdiyi ciddi cəhdlərə baxmayaraq, müharibə başlayandan qısa müddət ərzində bu strateji əhəmiyyətli qəsəbəni azad etməklə qələbəmizə əminlik yaratdı. Belə ki, Hadrut əməliyyatında Azərbaycan ordusunun gücünü, döyüş ruhunu, qələbə əzmini görən erməni silahlıları bu döyüşlərdən sonra bir daha özlərinə gələ bilmədilər. Günbəgün geriləyən, psixoloji cəhətdən məhv olan erməni yaraqlıları silah-sursatını ataraq döyüş meydanından qaçdılar. Ermənistan ordusunda fərarilik kəskin həddə çatdı. Qəhrəman Azərbaycan Ordusu isə hər an, hər saat irəliləyir, azad etdiyi şəhər və kəndlərdə üçrəngli bayrağımızı dalğalandırır, tarixi ədaləti bərpa edərək zəfər salnaməmizin qəhrəmanlıq dolu səhifələrini yazırdı.

Hadrut əməliyyatı bir-birinin ardınca qələbələrimizi gətirdi - 8 gün sonra Füzuli, ondan bir neçə gün sonra Zəngilan, Qubadlı və Laçın rayonunun cənub hissəsi işğalçılardan azad edildi. Mülki erməni əhalisinə atəş açmayan Azərbaycan Ordusunun bölmələri Şuşaya doğru irəliləyirdi. 44 günlük Vətən müharibəsi başlanan ilk günlərdən artilleriya atəşinə tutulan Şuşa ətrafında döyüşlər oktyabr ayının 29-da başladı və şəhərin müdafiəsini yarmaq üçün Azərbaycanın Xüsusi Təyinatlı Qüvvələri əraziyə yeridildi. Çanaqçı kəndini işğaldan azad etdikdən sonra strateji əhəmiyyətli Şuşa-Laçın yolunun bir hissəsinə nəzarəti ələ keçirən qəhrəman xüsusi təyinatlılar sıx meşələr, keçilməz yarğanlarla irəliləyərək Şuşaya Topxana meşələrindən yol açdı. Böyük Tağlar kəndindən meşələrlə Şuşaya, Çanaqçı və Sığınaq kəndlərinə doğru 3 gün ərzində 42 kilometr uzunluğunda yol açan mühəndis-istehkamçılar ensiz dağ cığırını texnikanın hərəkət edə biləcəyi meşə yoluna çevirdilər. Ölkə başçımızın dediyi kimi, "bizim aslanlarımız, igidlərimiz olmayan yerdə yol açdılar, öz əlləri ilə, öz ayaqları ilə, öz sinələri ilə". Ordumuzun xüsusi təyinatlılarının qayalara dırmaşaraq Şuşa şəhərini işğaldan azad etməsi dünya hərb tarixinin heyrətamiz nümunəsinə çevrildi. Onlar müharibənin ilk günündən sonuna qədər yalnız irəli gedərək torpaqlarımızın işğaldan azad olunmasında hünər, rəşadət, mətinlik nümayiş etdirdilər.

44 günlük Vətən müharibəsində 30 il düşmən əsarətində qalan ərazilərimiz qarış-qarış, kənd-kənd azad edildi, Qarabağ azadlığına qovuşduqca, bu torpaqlarda şanlı üçrəngli bayrağımız dalğalandı, mübariz xalqımızın qəhrəmanlıq salnaməsi yazıldı. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin torpaqlarımızın azad olunması ilə bağlı xalqa hər yeni qələbə müjdəli müraciəti Zəfər dastanımızın qürur dolu səhifəsinə çevrildi. Şüurlarda Qalib Ordu, Qalib Sərkərdə, Qalib Xalq anlayışı formalaşdı. 8 Noyabr müstəqil Azərbaycanın şanlı tarixinə Zəfər günü olaraq yazıldı. Həmin gün Prezident, Ali Baş Komandan İlham Əliyev Şəhidlər Xiyabanından Azərbaycanın qədim, tarixi şəhəri olan Şuşanın düşmən işğalından qurtuluş xəbərini iftixarla, qürurla xalqa çatdırdı: "Əziz həmvətənlər, əziz bacılar və qardaşlar! Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm! Bütün Şuşalıları ürəkdən təbrik edirəm!.. Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir. Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

İkinci Qarabağ müharibəsi Azərbaycanın möhtəşəm qələbəsi ilə başa çatdı, ermənilərin "qəhrəman ordusu" məğlub edildi. Özgə torpaqlarında özünə "dövlət" quran, xalqımızı doğma yurd yerlərindən didərgin salan, yüz illər boyu başına müsibətlər gətirən xəbis düşmən mərd oğullarımızın hünərini döyüş meydanında gördü. Vətənimizin başı üstündən qara buludlar dağıldı. Şəhidlərimizin qanı tökülən hər qarış torpaq Vətənə döndü. Azərbaycan xalqının həmrəyliyi, qalibiyyət ruhu, yenilməzliyi, Ali Baş Komandanın ətrafında sıx birləşməsi, "Dəmir yumruq" kimi möhkəm xalq-iqtidar birliyi xalqımızın mənliyini, kimliyini özünə qaytardı.

44 günlük Vətən müharibəsində bütün dünya şahid oldu ki, Odlar yurdu Azərbaycanın bir qarış torpağı üçün canını fəda edən, şəhadətə ucalıb ölümə meydan oxuyan yüzlərlə, minlərlə qəhrəman, mübariz oğulları var. Bu xalqın Vətəni müqəddəs sanan, ona xor baxan namərdi diz çökdürən, yurd sevgisini məşələ döndərib azadlıq yoluna işıq salan mərd oğlu-qızı var. Bu mərd oğullar Vətən, torpaq, bayraq sevgisi və Ali Baş Komandan hünəri ilə silahlanaraq tariximizə hər zaman qürurla öyünəcəyimiz qəhrəmanlıq salnaməsi yazdılar.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**